

## MÖHTƏŞƏM 20 İL 2003 2023



# Dövlətin humanitar siyasəti uğurlu nəticələrlə diqqət çəkir

**Xalqın min illərə söykənən mədəniyyəti, incəsənəti, ədəbiyyatı həm də onun milli kimliyinin, varlığının təzahürləridir. Azərbaycan xalqı bu mənada dünyanın ən zəngin xalqlarındandır. Bəşəriyyətin ilk sivilizasiya mərkəzlərindən olan ölkəmiz ilk bəşər övladlarının yaratmış olduqları qədim mədəniyyət nümunələri ilə diqqəti çəkir.**

Əsrlər Azərbaycana yalnız sülh, əmin-amanlıq gətirməyib. Zaman-zaman müharibələrə cəlb edilib, əraziləri yağmalanıb, işğal olunub. İşğalçılar bu xalqa məxsus qədim, böyük maddi və mənəvi dəyərə malik əsərləri daşıyıb aparıblar. Ancaq ən çətin vaxtlarında belə Azərbaycan xalqı öz mənəvi irsinə sahib çıxmağı, onu qoruyaraq gələcək nəsillərə ötürməyi və inkişaf etdirməyi bacarıb.

Bu gün isə müstəqil dövlətimiz - Azərbaycan dövləti yalnız dünyanın siyasi arenasında deyil, eyni zamanda mədəniyyət sahəsində çoxşaxəli uğurlu işlər həyata keçirən ölkələrin sırasında tanınır. Bunun üçün Azərbaycan dövləti qətiyyətli və ardıcıl işlər həyata keçirir. Prezident İlham Əliyevin hakimiyyətinin ilk illərindən - 2003-cü ildən bəri gerçəkləşən mədəniyyət layihələrini buna misal göstərə bilərik.

2004-cü ilin yanvarında UNESCO-nun iqamətgahında "Dədə Qorqud" dastanının 1500 illiyinə həsr olunmuş möhtəşəm tədbir, Brüsseldə "Dədə Qorqud" abidəsinin açılış mərasimi Azərbaycan ədəbiyyatının, mədəniyyətinin layiqli təbliğinə bariz nümunə oldu. Həmin il Fransa Senatının muzeyində 20 Azərbaycan rəssamının 70-dən çox əsəri nümayiş etdirildi.

Bakıda Türkiyə ilə dostluq, qardaşlıq münasibətlərinin, ədəbi əlaqələrin gücləndirilməsində xidmətləri olan Atatürk Mərkəzinin açılış mərasimi 2004-cü il aprelin 10-da keçirildi. Dövlətimizin başçısı İlham Əliyev tədbirdə iştirak etdi. Bir sıra xarici qonaqlar - Türkiyə Cümhuriyyətinin dövlət naziri Bəşir Atalay, Atatürk Yüksək Qurumunun başqanı professor Sadıq Tural, türkdilli ölkələrin Bakıdakı səfirləri həmin mərasimə qatıldılar.

2004-cü il iyunun 27-də Xarici İşlər Nazirliyində respublikanın xarici ölkələrdəki diplomatik nümayəndələrinin rəhbərləri ilə görüşdə Prezident İlham Əliyev olduqca vacib məsələlərə diqqəti yönəltdi. Dövlət başçısı bildirdi ki, Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır: "Ümumiyyətlə, mən xarici mətbuatı mütəmadi qaydada izləyirəm. Görürəm ki, Azərbaycan haqqında məlumatlar çox birtərəflidir. Azərbaycan yalnız neft ölkəsi kimi təqdim edilir, yaxud




da ölkəmiz haqqında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar məlumatlar verilir. Amma Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasiyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır. Müxtəlif ictimai-siyasi tədbirlər keçirilməlidir, Azərbaycandan nümayəndə heyətlərinin səfərləri təşkil olunmalıdır. Mədəniyyət xadimlərimizin səfərləri təşkil olunmalı, sərgilər keçirilməlidir. Mən demək istəmirəm ki, bu, yoxdur. Var, amma lazımi səviyyədə deyildir. Əgər bu tədbirlər varsa, yalnız hansısa bir məhdud çərçivə bundan xəbər tutur. Yəni bu məsələlər müxtəlif ölkələrin mətbuatında öz əksini tapmır. Amma siz bilirsiniz ki, bu gün mətbuat dünyada çox böyük rol oynayır. Əlbəttə, biz istərdik ki, Azərbaycan haqqında gedən məlumatlar reallığa əsaslansın".

Müstəqil Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən islahatlar sırasında latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi də böyük tarixi əhəmiyyət kəsb etdi. Bu sahədə bir sıra işlər görülsə də, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşri Prezident İlham Əliyev hakimiyyətə gələndə vacib məsələlərdən biri olaraq qalırdı. Ədəbiyyatımızın, mədəniyyətimizin və elmimizin ən gözəl nümunələrini təbliğ etmək, gələcək nəsillərə çatdırmaq məqsədilə Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkildə həyata keçirilməsi zərurətə çevrilmişdi. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü ildə imzaladığı sərəncam bu sahədə yaranmış problemlərin aradan qaldırılmasına yol açdı.

Prezident İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamına əsasən çoxcildlik Azərbaycan Milli Ensiklopediyasının nəşri qərara alındı. Sərəncamda Azərbaycan xalqının həyatında baş vermiş ictimai-siyasi, tarixi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirən yeni ensiklopediyanın hazırlanıb latın qrafikasında nəşr edilməsi zərurəti meydana çıxdığı qeyd olundu. "Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin tərkibinin və Əsasnamənin təsdiq edilməsi haqqında" Prezident 2004-cü il aprelin 2-də fərman imzaladı.

Azərbaycan Milli Ensiklopediyasının cildlərinin nəşrə hazırlanması və çapa təqdim edilməsi Azərbaycan Milli Elmlər Akademiyası tərkibində fəaliyyət göstərən xüsusiləşdirilmiş elmi təşkilat - Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinə həvalə olundu. "Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 may 2004-cü il tarixdə imzaladığı 206 saylı sərəncamilə Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi yaradıldı. Bu sahədə zəruri işlərə başlanıldı. Azərbaycan Milli Ensiklopediyasının 2007-ci ildə "Azərbaycan" xüsusi cildi Azərbaycan dilində, 2012-ci ildə rus dilində nəşr olundu. Universal ensiklopediyanın 1-9 cildləri işıq üzü gördü. Milli Ensiklopediyanın çapına başlanması Azərbaycan xalqının tarixində mühüm hadisələrdən birinə çevrildi.

Dövlət başçısı İlham Əliyev 2004-cü il mayın 15-də Prezident sarayında Yazıçılar Birliyinin rəhbərliyini qəbul etdi. Prezident İlham Əliyev yazıçılara dövlət qayğısının davam etdiriləcəyini bildirdi, milli ədəbiyyatın inkişafı, dünya ədəbiyyatına inteqrasiya ilə bağlı tövsiyələrini verdi.

2014-cü il iyunun 18-də dövlət başçısı Azərbaycan yazıçı, şair və ədəbiyyatşünaslarını Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi münasibətilə təbrik edərək qeyd etdi ki, başlıca amal ölkəmizin çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevrilməsidir: "Ümidvaram ki, müstəqilliyimizi göz bəbəyi kimi qoruyan, özünü vətənin azadlığı və ərazi bütövlüyü naminə fəda etməyə hər an hazır olan, müasir təfəkkür tərzinə malik sağlam əqidəli nəslin yetişdirilməsi daim sizin əsərlərinizin əsas qayəsi olacaqdır".

Prezident İlham Əliyev hakimiyyətdə olduğu iyirmi il ərzində sənət, elm və ədəbiyyat adamlarının, mədəniyyət işçilərinin yubileylərinin keçirilməsi, onlara fəxri adların və dövlət mükafatlarının verilməsi, orden və medallarla təltif edilməsi, Prezident təqaüdlərinin təyinatı məqsədilə çoxsaylı sərəncamlar verib. Bütün bunlar dövlət başçısının ədəbiyyata və mədəniyyətə göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir.

Dövlət başçısının 2008-ci ildə Mikayıl Müşfiqin 100 illik yubileyi haqqında verdiyi sərəncam yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatının parlaq səhifələrindən birini təşkil edən şairin şəxsiyyətinə, əsərlərinə verdiyi yüksək qiymət oldu. O cümlədən repressiyaya uğramış, mühacirət həyatı yaşamaq məcburiyyətində qalmış görkəmli şair Almas İldırımın yubileyinin keçirilməsi barədə Prezidentin 2007-ci il 16 aprel tarixli sərəncamı ədəbiyyata diqqət və qayğı baxımından dəyərlidir. Ümumi şəkildə deyə bilərik ki, XII əsr klassiklərindən Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, XIX əsr klassiklərindən Mirzə Fərəli Axundzadənin, Xurşidbanu Natəvanın, XX əsrin əvvəllərində yaşayıb-yaratmış Mirzə Ələkbər Sabirin, Hüseyn Cavidin, sonrakı mərhələnin nümayəndələri olan Rəsul Rzanın, İlyas Əfəndiyevin və başqalarının yubileylərinin keçirilməsi barəsində verilən sərəncamlar və həmin sərəncamlara uyğun möhtəşəm yubiley tədbirlərinin keçirilməsi, eləcə də bir çoxunun ölkənin müxtəlif yerlərində abidəsinin ucaldılması ədəbiyyatımıza diqqət və qayğının təzahürüdür.

Mədəniyyətin əhəmiyyətli sahəsi olan kinonun inkişafı da daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev 2007-ci il fevralın 23-də "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" sərəncam imzaladı. Azərbaycan Dövlət Film Fondunun yeni inzibati binası tikilib istifadəyə verildi. "Azərbaycanfilm" kinostudiyasının maddi-texniki bazası yaxşılaşdırıldı. "Nizami" kinoteatrı əsaslı şəkildə təmir edildi.

Prezident İlham Əliyevin 2018-ci il 31 yanvar tarixli sərəncamı ilə həmin ilin avqustunda milli kinomuzun 120 illiyi təntənəli şəkildə qeyd olundu.

Musiqimizin inkişafı məqsədilə həyata keçirilən işlər də təqdirəlayiqdir. Azərbaycan artıq beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirildiyi məkana çevrilib. Bakıda və regionlarda beynəlxalq musiqi festivalları təşkil edilir. Belə ki, 2003-cü ildən bəri mütəmadi olaraq Azərbaycanda Beynəlxalq incəsənət, Beynəlxalq milli rəqs və musiqi, Beynəlxalq Mstislav Rastrapoviç, Gəncə Beynəlxalq musiqi, Qəbələ Beynəlxalq musiqi, Beynəlxalq caz, Avropa Tolerantlıq festivalları, Beynəlxalq Azərbaycan xalçası simpoziumu, Bakı Beynəlxalq memarlıq müsabiqəsi, kitab sərgisi, kino və teatr festivalları, idman və musiqi yarışmaları təşkil edilir.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü, Prezident İlham Əliyevin sərəncamı ilə 2005-ci ilin avqustunda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu. 2008-ci il dekabrın 27-də mərkəzin açılış mərasimi keçirildi.

Vətən müharibəsindəki Zəfərimizdən sonra mədəniyyət sahəsində həyata keçirilən bir sıra möhtəşəm tədbirlərin də ünvanı mədəniyyətimizin paytaxtı Şuşa şəhəri oldu. 2021-ci ilin yanvarından Şuşanın bərpasına başlanıldı. Az vaxtda çox böyük işlər görüldü. Şuşanın mədəni həyatı yenidən canlanmağa başladı. Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Natəvanın büstləri yenidən Şuşada qoyuldu.

Prezident İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etdi. Ermənistanın işğalı nəticəsində yarımçıq qalan ənənəvi mədəni tədbirlər davam etdirildi. Otuz ildən sonra Şuşada "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri yenidən təşkil olunmağa başladı.

Şuşanın əzəməti özünə qaytarılır. Erməni vandallarının uçurub dağıtdıqları Azərbaycanın görkəmli şəxsiyyətlərinin ev-muzeyləri bərpa olunur, yeni muzeylər açılır, sərgilər, mədəni tədbirlər keçirilir.

Otuz ilə yaxın davam edən işğala son qoyulub. Bundan sonra sülh və əmin-amanlıq içərisində daha çox işlərin həyata keçiriləcəyi şübhəsizdir. Azərbaycanın qədim və zəngin mədəniyyəti, incəsənəti, ədəbiyyatı inkişaf edəcək və bütün dünyada layiqincə təbliğ ediləcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*